**Audit**

Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, sərbəst auditor

Auditorun cəlb edilməsi və auditə hazırlıq

Auditor xidməti haqqında Azərbaycan Respublikasının Qanununun 2-ci maddəsinin ikinci abzasında göstərilir ki, audit yoxlaması məcburi və ya könüllü (təsərrüfat subyektinin öz təşəbbüsü ilə) ola bilər. Həm məcburi, həm də könüllü audit yoxlamasının həyata keçirilməsi üçün təsərrüfat subyektinin rəhbərinin və ya mülkiyyətçisinin (sifarişçi) təsərrüfat subyektinə auditor cəlb etmək hüququ vardır.

Qanunun 17-ci maddəsində göstərilir ki, təsərrüfat subyektləri auditor seçməkdə sərbəstdirlər. Deməli, təsərrüfat subyektlərinin istənilən və ya istədiyi auditoru seçmək hüququ vardır. Lakin qanunun bir sıra müddəalarına görə, auditorun müstəqil seçilməsi müxtəlif səbəblərə görə məhdudlaşdırıla bilər. Məsələn, qanunun 3-cü maddəsində qeyd edilib ki, auditor xidməti dövlət orqanlarının öz səlahiyyətləri daxilində təsərrüfat subyektlərinin fəaliyyətini yoxlamasını istisna etmir. Yəni səlahiyyətli dövlət orqanlarının sifarişi ilə audit həyata keçirilə bilər və bu halda da auditor həmin orqan tərəfindən təyin oluna bilər.

Təsərrüfat subyektinin rəhbəri düşünə bilər ki, auditor seçməkdə verilən sərbəstlik hüququndan istifadə edərək istədiyi, etibar etdiyi, özünə yaxın hesab etdiyi, uzun müddət münasibətlərdə olduğu, necə deyərlər, tanıdığı auditoru dəvət etmək daha məqsədəmüvafiqdir. Lakin qanunun 18-ci maddəsinə görə, yoxlanılan müəssisədə şəxsi əmlak mənafeyi, yoxlanılan müəssisənin rəhbərliyindən hər hansı şəxslə birbaşa qohumluq əlaqəsi, müəssisənin təsisçisi, mülkiyyətçisi və ya səhmdarı olduqda, müəssisədə bundan əvvəl öz peşə fəaliyyəti ilə bağlı xidmətlər göstərdikdə auditorlara həmin müəssisələrdə audit aparmaq qadağan edilir. Deməli, göstərilən əlaqələr istisna olmaqla, müəssisə rəhbərinin tanıdığı, işinin keyfiyyətinə bələd olduğu istənilən auditor auditin aparılması üçün dəvət oluna bilər.

Auditoru necə tapmalı? Azərbaycan Respublikasının Auditorlar Palatasının rəsmi www.audit.gov.az saytına daxil olaraq sərbəst auditorlar və auditor təşkilatları barədə məlumatlar (auditorların və auditor təşkilatlarının adları, ünvanı, əlaqə telefon nömrələri, lisenziyanın verilmə tarixi və başqa zəruri məlumatlar) əldə etmək olar. İlk baxışda, sayta daxil olaraq «tanımadığım auditoru müəssisəyə dəvət etmək və ya ona etibar etmək olarmı?» sualı meydana çıxa bilər. Amma bu düşüncələrə qapılmağına dəyməz və birmənalı olaraq tanımadığınız istənilən auditoru dəvət etmək mümkündür. Auditor adını almış fiziki şəxs hər bir halda öz ixtisası üzrə peşəkardır. Lakin peşəkarlığın da müxtəlif səviyyələri ola bilər. Ona görə də yüksək peşəkarlığı olan auditorları tapmaqda auditor dəvət etmiş digər yaxından tanıdığınız və ya tərəfdaşlıq etdiyiniz müəssisələrin rəhbərlərindən rəyini nəzərə almaq və ya digər etibarlı məlumat mənbələrindən istifadə etmək daha faydalı olar...